# İsa Hüseynov (Muğanna) ədəbiyyatşünaslıqda

İlhamə Muxtar qızı Ağazadənin “İsa Hüseynovun (Muğanna) nəsrində milli koloritin inikası” (“Elm və təhsil”, 2018) monoqrafiyası unudulmaz Xalq yazıçısı İsa Muğannanın (Hüseynovun) yaradıcılığına həsr olunmuşdur. Redaktoru Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, rəyçiləri professorlar Vaqif Yusifli və Maarifə Hacıyevadır.

Kitaba yazdığı “İsa Muğanna və milli koloritin alt qatları” adlı ön sözdə M.Qasımlı qeyd edir ki, monoqrafiyada aparılan təhlillərdən aydın olur ki, İsa Hüseynovun (Muğanna) nəsrində folklor və etnoqrafiya dəyərləri sadəcə epik koloriti təşkil vasitəsi deyildir, bu keyfiyyət görkəmli nəsr ustası üçün həm də milli-mənəvi varlığın, tarixi kimliyin ifadə formasıdır. Bu baxımdan onun bədii nəsrinə məxsus olan xəlqi kolorit bir bütöv olaraq daha çox özünün alt qatlarındakı dolayı, məcazi mahiyyətlə üzə çıxır. İlhamə Muxtar bu istiqamətdə çox maraqlı elmi nəticələr əldə edə bilmişdir. Professor Məhərrəm Qasımlının bu fikirlərinin təsdiqi İlhamə Muxtarın giriş yazısında birbaşa öz ifadəsini tapır: “İsa Hüseynov nəsri orijinal, çoxşaxəli vəə genişplanda yaradıcılıqdır. Onun bütün əsərlərində obrazın millilik göstəricisi, milli-mənəvi dəyərlərə söykənməsi, mental şüur gerçəkliyindən çıxış etməsi, elat həyat tərzindən doğan inanclara bağlılığı bir sistem təsiri bağışlayır. Görkəmli ədibin yaratdığı bütün nümunələrdə xəlqi kolorit bir meyar, göstərici, istinad hadisəsi, təsir nöqtəsi kimi dəyər daşıyır. Etnoqrafik mədəniyyətin bütünlükdə mahiyyəti, fakturası, mətn və təsəvvür tipologiyası, yaddaş mexanizmi və s. sistemin bütövlüyünün komponentləri kimi səciyyələnir. Yaradıcılığa başladığı ilk gündən məhz fərqli müşahidə və münasibətləri ilə diqqət çəkən İsa Hüseynov yaradıcılığının birinci mərhələsində olduğu kimi, ikinci mərhələsində də milli koloritin aparıcılığına önəm vermiş və bütün düşüncəsini bu zəmin üzərində nizamlamışdır. Əxlaq və davranış normaları, tarixi kimliyin əsas tutulması, bədii nəsr nümunələrində obrazın əsas göstəricisi kimi milliliyin funksional səciyyəsi İ.Hüseynov nəsrinin özünəməxsusluğunu müəyyənləşdirən ana xətlərdir. Bütün bunlar yazıçının nəsr əsərlərində milli koloritin ifadə mexanizmlərinin – etnos yaddaşının, elat həyat tərzinin, əski inanclar, mənəvi-əxlaqi dəyərlər sisteminin, milli kimlik məsələsinin və s. aydınlaşdırılmasını aktuallaşdırır.”(səh.6)

Mənə elə gəlir ki, İlhamə xanım bu bir abzasızlıq yazıda məhz monoqrafiya boyunca dedikləri fikirlərin əsas məğzinə işıq tutmuşdur. Yəni araşdırdığı mövzunun kifayət qədər öyrənilməsinə ehiyac olduğunu göstərən müəllif burada qaldırdığı məsələnin zəhmətdən doğduğunu da bildirir. Çünki İsa Hüseynov – Muğanna elə bir yazıçıdır ki, onun əsərlərində qaldırılan bu problem birbaşa yazıçının iç dünyasının səsini ifadə edir və bütün bunlar da onun əsərlərinin ruhunda ifadəsini tapmışdır. Müəllif yazıçının “Xalq yaddaşında olan “Koroğlu”-ya “Koroğlunun çən qalası”nı əlavə etdiyini göstərib yazır: “Koroğlu” yaddaş hadisəsi, milli şüur, milli dəyər nümu-




nəsidir. İsa Hüseynov çağdaş ədəbiyyatın görkəmli nümayəndəsi kimi, yaddaşında olanları, təsəvvüründə zaman-zaman daşınanları ömrünün ahıllıq çağlarında bir təsadüfi hadisə kimi ədəbiyyata gətirməmişdir. Əksinə, burada XX əsrin 90-cı illərinin ağrıları, Qərbi Azərbaycanın itkisi, Qarabağ müharibəsinin qanlı-qadalı faktları vardır. “Koroğlunun çən qalası” hekayəsi həmin hadisələrdən, xalqın və dövlətin düşmənə qarşı mübarizəyə köklənməsindən qaynalanır: “Koroğlu” dastanı xalq yaddaşından, apardığı mücadilələrdən qopub yarandığı kimi, İ.Hüseynovun “Koroğlunun çən qalası” da məhz bir başqa müstəvidə yazıçı yaddaşının nümunəsidir”(səh.32). Göründüyü kimi,Ş filoloiya üzrə fəlsəfə doktoru İlhamə Muxtar tədqiqatında yazıçı İsa Hüeynovun nəsrindəki milli koloritin inikasını xalq yaradıcılığı ilə paralel şəkildə müqayisələr aparmaq yolu ilə təhlilə çəkir ki, bu da tədqiqatın əyaniliyini – yəni mülahizələrin faktlara söykənilməklə irəli sürüldüyünü göstərir. Əbəs deyildir ki, İlhamə xanım İsa Hüseynov yaradıcılığını bir bütöv olaraq göstərir və bu bütövün özünün isə iki mühüm epoxaya – mərhələyə böləndüyünü qeyd edir. Bu mərhələnin birincisi yazıçının birinci dövr yaradıcılığıdır ki, bu zaman ərzində yazıçı İsa Hüseynov ədəbi imzası ilə çıxış edirdi və tanınırdı. İkinci dövr yaradıcılığı isə oxucuların İsa Muğanna kimi tanınmağa başladığı dövrlə müşayiət olunur. Təsadüfi deyildir ki, İlhamə Muxtar yuxarıdakı mülahizələrinin davamı kimi göstərir ki, “Ancaq burada digər istiqamət yazıçının son dövr təsvir və təhkiyəsində özünü göstərən, ikinci dövr faktı kimi səciyyələnən yanaşmasıdır. Əlbəttə, ədəbi mühit İsa Hüseynov yaradıcılığındakı bu yanaşma və təsəvvürləri birmənalı olaraq qəbul eləmir. Daha çox ədəbiyyatın tarixində İsa Hüseynov kimi, “Yanar ürək”, “Saz”, “Tütək səsi”, “Kollu Koxa”, “Quru budaq” və s. kimi əsərlərin müəllifi olaraq tanıyır və yaddaşda da bu cür qaldığını vurğulayır. XX əsr Azərbaycan ədəbiyyatının tarixinə məhz bu əsərlərlə qəbul olduğunu göstərir. Son dövr bədii yaradıcılığındakı yanaşma və düşüncə fərqləri bir mürəkkəbliklə, paradoksallıqla, İsa Muğanna fantastikası ilə səciyyələnir. Yazıçı bu hekayəsində milli şüur və mənlik duyğuları anlamında Koroğlunun yaratdığı düşüncəni əlavələri ilə təzədən etnosun bədii-estetik düşüncə sferasına ötürür. “70-ci illərin sonu, 80-ci illərin əvvəllərində Muğanna “İdeal” romanını yazdı və rəsmən bəyan etdi ki, bu vaxta qədər yazdıqlarım mənim deyil, mən sizin tanıdığınız İsa Hüseynov yox, Muğannayam”.

“İdeal”dan sonra bir-birinin ardınca “Cəhənnəm”, “İsahəq, Musahəq”, “Gurün”, “Qəbiristan”, “Qırx kisə qızıl”, “İlan dərəsi və peyğəmbərin taleyi” kimi əsərlər yarandı. Burada oxucu üçün vacib hesab etdiyimiz bir məlumatı çatdıraq ki, yazıçı Muğannanın ilkin kodları “İdeal” romanındadır. Sonrakı əsərlərdə isə digər şifrələr açılır. Ümumilikdə Muğannanın əsərləri bütöv bir şəbəkəli sistemdir və onları ardıcıl oxumadan anlamaq, istənilən səviyyəli oxucu, hətta ədəbiyyatşünas üçün çətindir. Çünki Muğanna çağdaş dünyanın bilmədiyi tamam başqa bir linqvistika ilə, öz sözləri ilə desək, 50 min il bundan əvvəl mövcud olmuş OdƏr dilində yazır” (33).

Milli şüur, mənlik duyğularının ifadəsi, etnos dəyərlərinin yaşadılması anlamında İsa Hüseynov yaradıcılığı mətn tipi kimi müxtəlif müstəvilərdə yanaşma və təhlilləri aktuallaşdırır. Ən başlıcası isə tarixi yaddaşa, milli düşüncəyə bağlılıq hadisəsinə üstünlük verilməsidir.” (səh.33-34) Gətirilən sitatdan da bir daha bəlli olur ki, İlhamə Muxtarın nəsrdə milli koloritin inikası mövzusuna üz tutarkən məhz yazıçı kimi İsa Hüseynovu (Muğanna) seçməsi amili – heç də təsadüfi deyilmiş. Deməli, millilik, xəlqi düşüncə tərzi yazıçının ruhundan gəlir və ruhunun diqtəsi ilə onu nəsrə gətirir.

Çünki yazıçı, hər şeydən əvvəl, nəslə - soykökə bağlıdır, görüb – götürdüklərini təxəyyülünün süzgəcindən keçirməklə onu əsərlərində ədəbiyyat hadisəsi kimi canlandırır. Bu baxımdan İlhamə xanımın diqqəti yazıçının tənqidçi Mehdi Hüseynlə olan söhbətə yönəltməsi də oxucu üçün çox dəyərli bir haldır: “İ.Hüseynov obrazlarının mahiyyət və bütövlük tərəflərinin tam görünüşü baxımından tənqidçi, ədəbiyyatşünas M.Hüseynlə söhbətində vurğuladığı bir məqam xüsusi olaraq böyük dəyər qazanır: “Bu, 1949-cu ildə “Anadil ötən yerdə” oçerkim “Azərbaycan” jurnalında çap olunandan sonra oldu:

-Səni tənbeh edəcəyəm, - dedi, - Oçerki niyə atandan yazmısan?

Çox düşünmədən dedim:

-Çünki atamı yaxşı tanıyıram.

Sonralar məlum oldu ki, mənim təsadüfən verdiyim cavabımda hikmət var. Bu hikmətə görə də Mehdi qağa bu cavabı Yazıçılar İttifaqında danışıb. Bir vaxt ayıldım ki, “çünki atamı yaxşı tanıyıram” sözləri dilə-ağıza düşüb, nəzəriyyə kimi bir şey olub” (99, 44). Doğurdan da, bu, İ.Hüseynov yaradıcılığı üçün bir yaradıcı keyfiyyəti, özünəməxsusluq hadisəsi kimi görünür. Onun bütün əsərlərində bu və ya digər dərəcədə gördüklərinin, şahidi olduqlarının, həyatında baş verənlərin yazıçı təxəyyülündən bədii fakta gətirilməsi halları müşahidə olunur. Məhz bunlar İ.Hüseynovun əsərlərinə canlılıq gətirmiş, milli kolorit zənginliyi ilə boyanmasına şərait yaratmışdır.” (səh.24-25)

Bu yolla tədqiqatçı həm də yazıçının əsərlərinin mövzusunun birbaşa həyatdan gəldiyinə işarə etmişdir. Gündəlik məişətimizdə, həyatımızda olanların – yaşananların əks-sədasını əsərlərində xalq ruhu ilə ətə-qana doldurub yaşadan İsa Muğannanın (Hüseynovun) nəsrini məhz bu cür özünəməxsus keyfiyyətləri ilə birgə götürüb araşdıran fəlsəfə doktoru İlhamə Muxtar qızı bununla ədəbiyyatşünaslığımıza mühüm töhfə bəxş etmiş oldu. İnanırıq ki, müəllif bu istiqamətdəki araşdırmaları ilə yeni-yeni əsərlərə imza atacaqdır.

***Şakir ALBALIYEV***